**Hidrotexniki qurğuların təhlükəsizliyi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Bu Qanun hidrotexniki qurğuların layihələndirilməsi, tikintisi, istismarı, yenidən qurulması, bərpası, konservasiyası və ləğv edilməsi zamanı onların təhlükəsizliyinin təmin olunması ilə bağlı münasibətləri tənzimləyir, dövlət hakimiyyəti orqanlarının, qurğu mülkiyyətçilərinin və istismarçılarının vəzifələrini müəyyənləşdirir.

I fəsil
## ÜMUMİ MÜDDƏALAR

Maddə 1. **Əsas anlayışlar**

1.0. Bu Qanunda istifadə olunan anlayışlar aşağıdakı mənaları ifadə edir:

1.0.1. hidrotexniki qurğu - su anbarları, bəndlər, magistral sunəqledici kəmərlər, su elektrik stansiyaları, sutullayıcı, suburaxıcı, suqəbuledici, sudurulducu, suötürücü, su nasosxanaları, tunellər, kanallar, kollektorlar, səviyyəəlaqələndirici, sahilqoruyucu, sahilbərkidici, məcranizamlayıcı, balıqburaxan və balıqqoruyucu, Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində yerləşən dəniz qurğuları (estakadalar, estakadayanı meydançalar, stasionar dəniz platformaları, *su mühiti ilə qarşılıqlı təsirdə olan, dəniz üzgüçülüyünün təhlükəsizliyinin təmin edilməsi və gəmilərin dayanması üçün nəzərdə tutulmuş mühəndis-texniki qurğular*, gəmiburaxan şlyüzlər), habelə yeraltı və yerüstü su ehtiyatlarından istifadə etmək və suyun zərərli təsirlərinin qarşısını almaq üçün istifadə olunan digər xüsusi mühəndis-texniki qurğular;[1]

1.0.2. hidrotexniki qurğunun təhlükəsizliyi - hidrotexniki qurğunun qəzaya uğraması və zədələnməsi nəticəsində yarana biləcək fəlakətlərdən və təhlükəli hadisələrdən insanların həyatının, sağlamlığının, *dövlətin əmlak maraqlarının*, ətraf mühitin və təsərrüfat obyektlərinin mühafizəsini təmin edən xüsusiyyətləri;[2]

1.0.3. hidrotexniki qurğunun təhlükəsizliyinin qiymətləndirilməsi - hidrotexniki qurğunun texniki vəziyyətinin və istismar heyətinin ixtisas dərəcəsinin bu Qanunla və digər müvafiq normativ hüquqi aktlarla müəyyən olunan norma və qaydalara uyğunluğunun müəyyənləşdirilməsi;

1.0.4. hidrotexniki qurğunun təhlükəsizliyi meyarları - hidrotexniki qurğunun davamlılığının və texniki vəziyyətinin, eləcə də istismar şərtlərinin qurğuda qəza baş verməsinin yol verilə bilən risk həddinə uyğun gələn kəmiyyət və keyfiyyət göstəricilərinin son həddi;

1.0.5. hidrotexniki qurğunun təhlükəsizliyinin təmin olunması - hidrotexniki qurğuda qəza baş verməsinin qarşısının alınması üzrə kompleks tədbirlərin işlənib hazırlanması və həyata keçirilməsi;

1.0.6. hidrotexniki qurğunun təhlükəsizlik bəyannaməsi - hidrotexniki qurğunun təhlükəsizliyini əsaslandıran və təhlükəsizliyin təmin edilməsi tədbirlərini özündə əks etdirən sənəd;

1.0.7. hidrotexniki qurğunun mülkiyyətçisi - hidrotexniki qurğuya sahiblik etmək, onun barəsində sərəncam vermək və ondan istifadəyə icazə vermək hüququ olan hüquqi və ya fiziki şəxs;

1.0.8. hidrotexniki qurğunun istismarçısı - mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq təsərrüfat yaxud sahibkarlıq fəaliyyəti məqsədi ilə hidrotexniki qurğunu istismar edən hüquqi və ya fiziki şəxs;

1.0.9. fövqəladə hal - hidrotexniki qurğuda baş verən qəza və zədələnmə nəticəsində müəyyən bir ərazidə insanların həyatına, sağlamlığına, əmlakına, ətraf mühitə və təsərrüfat obyektlərinə zərər dəyməsinə, habelə maddi itkilərə səbəb olan vəziyyət.

M a d d ə 2 . **Hidrotexniki qurğuların təhlükəsizliyi haqqında qanunvericilik**

2.1. Hidrotexniki qurğuların təhlükəsizliyi haqqında qanunvericilik bu Qanundan, Azərbaycan Respublikasının Su Məcəlləsindən, "Meliorasiya və irriqasiya haqqında", "Su təchizatı və tullantı suları haqqında", "Energetika haqqında", "Elektrik və istilik stansiyaları haqqında", "Enerji resurslarından istifadə haqqında", "Texniki təhlükəsizlik haqqında" Azərbaycan Respublikasının qanunlarından və digər normativ hüquqi aktlardan ibarətdir.

2.2. Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası müqavilələrdə hidrotexniki qurğuların təhlükəsizliyi ilə əlaqədar müəyyən edilmiş qaydalar bu Qanunda nəzərdə tutulmuş qaydalardan fərqlənərsə, beynəlxalq müqavilələrin qaydaları tətbiq edilir.

2.3. Hidrotexniki qurğuların təhlükəsizliyi sahəsində beynəlxalq əməkdaşlıq Azərbaycan Respublikasının qanunvericiliyinə və beynəlxalq hüquq normalarına uyğun olaraq Azərbaycan Respublikası ilə başqa dövlətlər və beynəlxalq təşkilatlar arasında bağlanmış müqavilələr, sazişlər və razılaşmalar əsasında həyata keçirilir.

M a d d ə 3 . **Hidrotexniki qurğuların təhlükəsizliyi üzrə təsnifatı**

3.1. Azərbaycan Respublikasının ərazisində məqsədli təyinatından, təhlükəsizlik dərəcəsindən, mühafizə rejimindən və istifadə xüsusiyyətlərindən asılı olaraq hidrotexniki qurğular təsnifatlaşdırılır, dövlət və yerli əhəmiyyətli hidrotexniki qurğulara bölünür.

3.2. Dövlətlərarası müştərək istismar edilən və kaskad tipli su elektrik stansiyaları, iri su anbarları, su nasosxanaları, bəndlər, tunellər, magistral kanallar, kollektorlar, su anbarlarının və çay sahillərinin mühafizə qurğuları, habelə Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində yerləşən dəniz qurğuları xüsusi mühafizə olunan dövlət əhəmiyyətli hidrotexniki qurğulara aid edilir.

3.3. Dövlət və yerli əhəmiyyətli hidrotexniki qurğuların siyahısı, mühafizə rejimi və təhlükəsizliyi üzrə təsnifatı müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

M a d d ə 4 . **Hidrotexniki qurğular üzərində mülkiyyət və istismar hüququ**

4.1. Hidrotexniki qurğular dövlət, bələdiyyə və xüsusi mülkiyyətdə ola bilər.

4.2. Hidrotexniki qurğular üzərində istismar hüququ Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada əldə edilir.

M a d d ə 5 . **Hidrotexniki qurğuların dövlət reyestri**

5.1. Hidrotexniki qurğuların dövlət reyestri qurğunun məqsədli təyinatını, texniki xassələrini, təhlükəsizlik dərəcəsini və təhlükəsizliyi üzrə təsnifatını özündə əks etdirən məlumatlar toplusudur və onların sistemləşdirilmiş qeydiyyatını, səmərəli istifadəsini və mühafizəsini təşkil etmək məqsədi ilə aparılır.

5.2. Hidrotexniki qurğuların dövlət reyestrinin tərtib olunması və aparılması qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

5.3. Hidrotexniki qurğuların təhlükəsizlik bəyannaməsi təsdiq edildikdən sonra dövlət reyestrinə daxil edilir.

## I I f ə s i l
## HİDROTEXNİKİ QURĞULARIN TƏHLÜKƏSİZLİYİNİN TƏMİN OLUNMASI

M a d d ə 6 . **Hidrotexniki qurğuların təhlükəsizliyinin təmin olunmasına tələblər**

6.1. Hidrotexniki qurğuların təhlükəsizliyi aşağıdakı tələblər əsasında təmin olunur:

6.1.1. qurğularda qəza riskinin müəyyən olunması;

6.1.2. qurğuların təhlükəsizlik bəyannaməsinin tərtib edilməsi və ona riayət edilməsi;

6.1.3. qurğuların istismarının fasiləsizliyi;

6.1.4. qurğuların təhlükəsizliyinin təmin olunması üzrə tədbirlərin hazırlanması, həyata keçirilməsi, o cümlədən onların təhlükəsizlik meyarlarının müəyyən edilməsi, texniki vəziyyətinə nəzarət etmək üçün lazımi vasitələrlə təchiz olunması, istismar heyətinin tələb olunan texniki ixtisas dərəcələrinin təmin olunması;

6.1.5. qurğularda fövqəladə halların qarşısını almaq məqsədi ilə qabaqlayıcı kompleks tədbirlərin görülməsi;

6.1.6. qurğuların təhlükəsizliyinin təmin olunması üzrə tədbirlərin maliyyələşdirilməsi;

6.1.7. qurğuların təhlükəsizlik dərəcəsinin müəyyən edilmiş həddən aşağı düşməsinə səbəb olan hərəkətlərə (yaxud hərəkətsizliyə) görə məsuliyyətin müəyyənləşdirilməsi.

6.2. Hidrotexniki qurğuların yerləşdiyi ərazilərdə onların təhlükəsizliyi üzrə təsnifatından asılı olaraq müvafiq mühafizə rejimi tətbiq edilir və ətrafında mühafizə zonaları yaradılır. Mühafizə zonalarının ölçüləri, sərhədləri və istifadəsi qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən olunur.

6.3. Dövlət əhəmiyyətli xüsusi mühafizə olunan hidrotexniki qurğuların mühafizə zonalarının hüdudlarında (dəniz qurğularında yerləşən quyularda quyudaxili partlayış işləri istisna olmaqla) partlayış işlərinin aparılması və yeraltı təbii ehtiyatların istismarı, habelə qurğulara və ətraf mühitə fiziki, kimyəvi və bioloji təsir göstərə bilən obyektlərin yerləşdirilməsi və fəaliyyət göstərməsi qadağan edilir.

6.4. Dövlət energetika və su nəqliyyatı sistemi müəssisələrinin tərkibində fəaliyyət göstərən hidrotexniki qurğuların, o cümlədən Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində yerləşən dəniz qurğularının təhlükəsizliyinin təmin olunmasının xüsusiyyətləri müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilmiş əsasnamə ilə müəyyən olunur.

M a d d ə 7 . **Hidrotexniki qurğuların təhlükəsizliyinin təmin olunması üzrə dövlətin vəzifələri**

7.0. Hidrotexniki qurğuların təhlükəsizliyinin təmin olunması üzrə dövlətin vəzifələri aşağıdakılardır:

7.0.1. qurğuların təhlükəsizliyinin təmin olunması üzrə dövlət proqramları hazırlamaq və həyata keçirmək;

7.0.2. qurğuların təhlükəsizliyi sahəsində elmi-texniki siyasəti müəyyən etmək və beynəlxalq əməkdaşlığı həyata keçirmək;

7.0.3. qurğuların təhlükəsizliyi üzrə təsnifatını və mühafizə rejimini müəyyən etmək;

7.0.4. qurğuların dövlət reyestrinin tərtib edilməsi və aparılması qaydalarını müəyyən etmək;

7.0.5. qurğuların təhlükəsizlik bəyannaməsinin ekspertizasının keçirilməsi və tərtib olunma qaydalarını təsdiq etmək;

7.0.6. qurğularda qəza hadisələrinin texniki təhqiqatının aparılması üzrə xüsusi komissiya təşkil etmək;

7.0.7. qurğuların etibarlılığını, təhlükəsiz istismar qaydalarını və tələblərini özündə əks etdirən normativlərin və standartların işlənməsini və təsdiqini təşkil etmək;

7.0.8. qurğuların təhlükəsizliyi üzrə dövlət nəzarətinin həyata keçirilməsi qaydalarını müəyyən etmək;

7.0.9. təbii fəlakət nəticəsində qəzaya uğramış, zədələnmiş və dağılmış qurğuların ləğv olunması, bərpası və ya konservasiyası barədə qərar qəbul etmək;

7.0.10. qanunvericiliklə müəyyən edilmiş digər vəzifələri həyata keçirmək.

M a d d ə 8 . **Hidrotexniki qurğuların təhlükəsizliyinin təmin olunması sahəsində qurğu mülkiyyətçisinin və istismarçısının vəzifələri**

8.1. Hidrotexniki qurğuların təhlükəsizliyinin təmin olunması sahəsində qurğu mülkiyyətçisinin və istismarçısının vəzifələri aşağıdakılardır:

8.1.1. qurğunun tikintisi, istismara verilməsi, istismarı, təmiri, yenidən qurulması, istismardan çıxarılması və konservasiyası zamanı təhlükəsizlik norma və qaydalarına riayət edilməsini təmin etmək;

8.1.2. qurğunun istismarını mövcud qanunvericiliyə uyğun təşkil etmək, istismar heyətinin ixtisas dərəcəsinin artırılmasını təmin etmək;

8.1.3. qurğunun texniki vəziyyətinə müntəzəm nəzarət etmək, fasiləsiz monitorinq aparmaq, onların nəticələrini təhlil etmək, əldə olunmuş məlumatlar əsasında qurğuların təhlükəsizliyini, təbii və texnogen hadisələrin zərərli təsirini proqnozlaşdırmaq və qiymətləndirmək;

8.1.4. qurğuda fövqəladə vəziyyətin yarandığını xəbər verən yerli xəbərdarlıq sisteminin daim işlək vəziyyətdə olmasını təmin etmək;

8.1.5. qurğunun texniki vəziyyətinə nəzarət sistemi yaratmaq, onu daim təkmilləşdirmək və işlək vəziyyətdə olmasını təmin etmək;

8.1.6. qurğuda qəza baş verməsi ehtimalı yarandığı hallarda müvafiq icra hakimiyyəti orqanlarını, bələdiyyələri və əhalini xəbərdar etmək, baş verə biləcək qəzanın aradan qaldırılması üzrə təkliflər vermək və tədbirlər görmək;

8.1.7. qurğunun təhlükəsizliyinə mənfi təsir göstərən səbəblərin müntəzəm təhlili, onun texniki cəhətdən saz və təhlükəsiz olmasının təmin edilməsi, habelə qurğuda qəza baş verməsinin qarşısının alınması üzrə vaxtında lazımi tədbirlər işləyib həyata keçirmək;

8.1.8. qurğuda qəzanın qarşısının alınması məsələləri üzrə müvafiq icra hakimiyyəti orqanları və bələdiyyələrlə qarşılıqlı əlaqələr yaratmaq, qəza təhlükəsi və qurğunun dağılma qorxusu reallaşdıqda ərazidə məskunlaşan əhalinin və təşkilatların subasma zonasından çıxarılmasına yardım etmək;

8.1.9. dövlət nəzarət orqanları tərəfindən aşkar edilən təhlükəsizlik norma və qayda pozuntularını vaxtında aradan qaldırmaq;

8.1.10. qurğunun təhlükəsiz istismarı, qəza hadisələrinin baş verməməsi və qəzanın nəticələrinin aradan qaldırılması üçün müvafiq maliyyə və material ehtiyatları yaratmaq.

8.2. Hidrotexniki qurğunun mülkiyyətçisi və istismarçısı onun təhlükəsizliyinə öz səlahiyyətləri daxilində cavabdehdirlər.

M a d d ə 9 . **Hidrotexniki qurğuların təhlükəsizlik bəyannaməsi**

9.1. Hidrotexniki qurğuların layihələndirilməsi, tikintisi və istismarı mərhələlərində, eləcə də onların yenidən qurulması, əsaslı təmiri, bərpası və konservasiyasından sonra qurğunun mülkiyyətçisi və ya istismarçısı hidrotexniki qurğunun təhlükəsizlik bəyannaməsini tərtib etməlidir.

9.2. Hidrotexniki qurğuların təhlükəsizlik bəyannaməsi qurğunun təhlükəsizlik meyarlarına cavab verən məlumatları özündə əks etdirən əsas sənəddir.

9.3. Hidrotexniki qurğuların təhlükəsizlik bəyannaməsinin tərtib olunma qaydaları və forması müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

9.4. Hidrotexniki qurğunun mülkiyyətçisi və ya istismarçısı qurğunun təhlükəsizlik bəyannaməsini müvafiq icra hakimiyyəti orqanlarının təsdiqinə verir. Hidrotexniki qurğuların təhlükəsizlik bəyannaməsinin təsdiq olunması, qurğunun dövlət reyestrinə daxil edilməsi, layihənin təsdiq edilməsi, qurğunun tikintisi, istismara

verilməsi, istismar edilməsi, istismardan çıxarılması, yenidən qurulması, əsaslı təmiri, bərpası və konservasiyası, habelə təyinatının dəyişdirilməsi və ləğvi üçün əsasdır.

9.5. Hidrotexniki qurğunun mülkiyyətçisi və istismarçısı təhlükəsizlik bəyannaməsində göstərilən məlumatların düzgünlüyünə qanunvericiliklə müəyyən olunmuş qaydada məsuliyyət daşıyırlar.

9.6. Hidrotexniki qurğuların təhlükəsizlik bəyannaməsi qurğunun mülkiyyətçisində və ya istismarçısında saxlanılır.

M a d d ə 1 0 . **Hidrotexniki qurğuların təhlükəsizlik bəyannaməsinin ekspertizası**

10.1. Hidrotexniki qurğuların təhlükəsizlik bəyannaməsinin ekspertizası layihə mərhələsi də daxil olmaqla müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş qaydada ödənişli əsaslarla həyata keçirilir.

10.2. Hidrotexniki qurğuların təhlükəsizlik bəyannaməsinin ekspertizasını aparmaq üçün elmi tədqiqat və layihə təşkilatları cəlb edilə bilər.

10.3. Ekspertizanın nəticəsi əsasında müvafiq icra hakimiyyəti orqanları tərəfindən qurğuların təhlükəsizlik bəyannaməsinin təsdiqi haqqında qərar verilir.

M a d d ə 1 1 . **Hidrotexniki qurğuda baş vermiş qəza hadisələrinin texniki təhqiqatı**

11.1. Hidrotexniki qurğuda baş vermiş qəza hadisəsi müvafiq icra hakimiyyəti orqanının təşkil etdiyi xüsusi komissiya tərəfindən texniki cəhətdən təhqiq edilir.

11.2. Qəza hadisələrinin texniki təhqiqatının nəticələri barədə komissiya tərəfindən xüsusi akt tərtib edilir. Aktda qəzanın səbəbləri və onunla bağlı təhlükənin hərtərəfli qiymətləndirilməsi, qəza nəticəsində dəyən ziyanın həcmi, təhlükəsizlik qaydalarının və tələblərinin pozulması halları, habelə qəza hadisəsinin lokallaşdırılması və aradan qaldırılması üzrə görülmüş və görüləcək tədbirlər göstərilir.

11.3. Hidrotexniki qurğuların mülkiyyətçiləri və istismarçıları qəza hadisələrinin texniki təhqiqatı üzrə təşkil edilmiş komissiyaya lazımi məlumat və sənədləri təqdim etməlidir.

## I I I f ə s i l
## HİDROTEXNİKİ QURĞULARIN TƏHLÜKƏSİZLİYİNƏ DÖVLƏT NƏZARƏTİ

M a d d ə 1 2 . **Hidrotexniki qurğuların təhlükəsizliyinə dövlət nəzarətinin məqsədi**

12.1. Hidrotexniki qurğuların təhlükəsizliyinə dövlət nəzarətinin məqsədi onların təhlükəsizliyi meyarlarına, normalarına, habelə bu sahədə müəyyən olunmuş digər normativlərə, ekoloji, texnoloji, seysmoloji, metroloji, sanitariya-gigiyenik standartlara, qaydalara və tələblərə riayət olunmasını təmin etməkdən ibarətdir.

12.2. Hidrotexniki qurğuların təhlükəsizliyinə dövlət nəzarətinin həyata keçirilməsi qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

M a d d ə  1 3 . **Hidrotexniki qurğuların təhlükəsizliyinə dövlət nəzarətini həyata keçirən orqanların vəzifələri**

13.1. Hidrotexniki qurğuların təhlükəsizliyinə dövlət nəzarəti müvafiq icra hakimiyyəti orqanları tərəfindən həyata keçirilir.

13.2. Hidrotexniki qurğuların təhlükəsizliyinə dövlət nəzarətini həyata keçirən orqanların vəzifələri aşağıdakılardır:

13.2.1. qurğuların təhlükəsizlik qaydalarını hazırlamaq, təsdiq etmək, onların meyarlarını müəyyənləşdirmək;

13.2.2. qurğuların dövlət reyestrini aparmaq;

13.2.3. qurğuların təhlükəsizlik bəyannaməsinin ekspertizasını keçirmək, təsdiq etmək və onları dövlət reyestrinə daxil etmək;

13.2.4. qurğuların yerləşdirilməsində, layihə tapşırıqlarının, tikinti və yenidən qurulma layihələrinin, habelə istismar qaydalarının razılaşdırılmasında, tikintinin keyfiyyətinə nəzarət və tikintisi qurtarmış obyektlərin istismara qəbul edilməsində iştirak etmək;

13.2.5. qurğulara maneəsiz baxış keçirmək, təhlükəsizliyi barədə materiallarla tanış olmaq və texniki nəzarəti təşkil etmək;

13.2.6. qurğuların texniki vəziyyətinin onun təhlükəsizlik bəyannaməsinə uyğunluğunu yoxlamaq;

13.2.7. qurğuların yerləşdiyi ərazilərdən, çayların məcralarından, digər sututarlardan və onlara bitişik ərazilərdən (suqoruyucu zonalar yerləşən torpaq sahələri istisna olmaqla) istifadə olunmasını razılaşdırmaq;

13.2.8. qurğuların təhlükəsizliyinə aid normativ hüquqi aktların layihələrinin hazırlanmasında iştirak etmək;

13.2.9. çayların məcralarında, sututarlarda, onlara bitişik sahələrdə və dənizdə hidrotexniki qurğuların təhlükəsizliyinə xələl gətirən hüquqi və fiziki şəxslərin təsərrüfat fəaliyyətini dayandırmaq yaxud məhdudlaşdırmaq;

13.2.10. qurğuların təhlükəsizliyi təmin olunmadıqda tikinti, yenidənqurma, bərpa və konservasiya işlərini, eləcə də fəaliyyətini dayandırmaq.

M a d d ə  1 4 . **Hidrotexniki qurğuların təhlükəsizliyinə nəzarətin təşkili**

14.1. Hidrotexniki qurğuların təhlükəsizliyinə nəzarət onların təhlükəsizliyinin qiymətləndirilməsi məqsədi ilə qurğuların istismarı, eləcə də tikintisi, yenidən qurulması, əsaslı təmiri, bərpası və konservasiyası zamanı *"Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununun tələbləri nəzərə alınmaqla* texniki yoxlama qaydasında həyata keçirilir. [3]

~~*14.2. Texniki yoxlama müvafiq icra hakimiyyəti orqanlarının təsdiq etdiyi əsasnamə ilə nizamlanır və həyata keçirilir.*~~ [4]

14.3. Texniki yoxlamanın nəticələri əsasında müvafiq icra hakimiyyəti orqanları qərar qəbul edir və onu hidrotexniki qurğunun mülkiyyətçilərinə və ya istismarçılarına göndərir.

14.4. Mülkiyyətçilər və ya istismarçılar texniki yoxlamanın nəticələri barədə müvafiq icra hakimiyyəti orqanlarının qərarını yerinə yetirməyə borcludurlar.

## IV fəsil
## HİDROTEXNİKİ QURĞULARIN TƏHLÜKƏSİZLİYİ HAQQINDA QANUNVERİCİLİYİN POZULMASINA GÖRƏ MƏSULİYYƏT VƏ MÜBAHİSƏLƏRİN HƏLLİ

### Maddə 15. **Hidrotexniki qurğuların təhlükəsizliyi haqqında qanunvericiliyin pozulması nəticəsində vurulan ziyanın ödənilməsi**

15.1. Hidrotexniki qurğuların təhlükəsizliyi haqqında qanunvericiliyin pozulması nəticəsində fövqəladə hallar istisna olmaqla, insanların həyatına, sağlamlığına, hüquqi və fiziki şəxslərin əmlakına vurulan ziyan qüvvədə olan qanunvericiliyə əsasən zərərçəkənlərə qurğunun mülkiyyətçisinin və ya istismarçısının vəsaiti hesabına ödənilir.

15.2. Hidrotexniki qurğuların mülkiyyətçisi və ya istismarçısı onların sığortalanmasını Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq təmin edir.

### Maddə 16. **Hidrotexniki qurğuların təhlükəsizliyi haqqında qanunvericiliyin pozulmasına görə məsuliyyət**

Hidrotexniki qurğuların təhlükəsizliyi haqqında qanunvericiliyin pozulmasında təqsirkar olan şəxslər Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada məsuliyyət daşıyırlar.

### Maddə 17. **Mübahisələrin həlli**

Hidrotexniki qurğuların təhlükəsizliyinin təmin olunması ilə bağlı mübahisələr Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq məhkəmə qaydasında həll edilir.

**Heydər ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 27 dekabr 2002-ci il
№ 412-IIQ

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

1. 30 sentyabr 2014-cü il tarixli **1034-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 9 noyabr 2014-cü il, № 245; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 10, maddə 1154**)
2. 18 dekabr 2015-ci il tarixli **46-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Respublika" qəzeti, 29 yanvar 2016-cı il, № 20, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 01, maddə 13)**

## QANUNA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

---

[1] 18 dekabr 2015-ci il tarixli **46-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Respublika" qəzeti, 29 yanvar 2016-cı il, № 20, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 01, maddə 13)** ilə 1.0.1-ci maddəsində "**limanlar**" sözü "**su mühiti ilə qarşılıqlı təsirdə olan, dəniz üzgüçülüyünün təhlükəsizliyinin təmin edilməsi və gəmilərin dayanması üçün nəzərdə tutulmuş mühəndis-texniki qurğular**" sözləri ilə əvəz edilmişdir.

[2] 30 sentyabr 2014-cü il tarixli **1034-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 9 noyabr 2014-cü il, № 245; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 10, maddə 1154**) ilə 1.0.2-ci maddədə "**əmlakının**" sözü "**dövlətin əmlak maraqlarının**" sözləri ilə əvəz edilmişdir.

[3] 30 sentyabr 2014-cü il tarixli **1034-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 9 noyabr 2014-cü il, № 245; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 10, maddə 1154**) ilə 14.1-ci maddədə "**konservasiyası zamanı**" sözlərindən sonra "**Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununun tələbləri nəzərə alınmaqla**" sözləri əlavə edilmişdir.

[4] 30 sentyabr 2014-cü il tarixli **1034-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 9 noyabr 2014-cü il, № 245; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 10, maddə 1154**) ilə 14.2-ci maddə ləğv edilmişdir.